# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI SƏDRİNİN SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/27** **27 iyul 2016-cı il**

**Azərbaycan Respublikasının Auditorlar Palatasında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası barədə**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 951 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası”nın müddəalarına uyğun olaraq Azərbaycan Respublikasının Auditorlar Palatasında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması işinin təkmilləşdirilməsi məqsədilə

**QƏRARA ALIRAM:**

1. “Azərbaycan Respublikasının Auditorlar Palatasında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası” təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatasının struktur bölmələrinin rəhbərlərinə (Q.Bayramov, N.Talıbov, F.Qarayev, M.Abbasov, S.Gülməmmədov, V.Rəhimov, Y.Namazəliyev, R.Cəfərli) tapşırılsın ki, bu “Qayda”dan irəli gələn vəzifələrin icrasını vaxtında və keyfiyyətlə təmin etsinlər.
3. Bu sərəncamın və “Qayda”nın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.
4. “Qayda”nın icrasına nəzarət Palata Sədrinin müavini F.İsmayılova həvalə edilsin.

**PALATANIN SƏDRİ** **VAHİD NOVRUZOV**